Azərbaycan Respublikasının Mediannın İnkişafı Agentliyi

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan Ermənistan üzərində həlledici qələbəsini qazanır...

**Qarabağ məsələsini ərazi bütövlüyü çərçivəsində həll etdikdən sonra Azərbaycan üçün maraq doğuran əsas məsələ Ermənistanla sərhədlərini müəyyən etməkdir. Əslində, bu xüsusda hansısa ciddi problem yoxdur. SSRİ dövrünün xəritələri və müasir GPS cihazlarının tətbiqi iki ölkə arasında sərhədlərin müəyyən edilməsində bütün problemlərin effektiv həllinə imkan verir.**

Sadəcə, Ermənistan bu məsələdə problemlər yaratmağa can atır. Lakin Ermənistanın bu mövqeyi təkcə Azərbaycan yox, region və dünya dövlətləri tərəfindən də qəbul edilmir.

### Bakı Zəngəzurda sərhəd məsələsini uğurla çözür...

Regionda özünü sülhün qarantı kimi təqdim edən Rusiya da bu gün açıq şəkildə bəyan edir ki, sərhədlərin müəyyən edilməsi prosesi tezləşməlidir. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova həftəlik brifinqdə bu xüsusda bildirib: "Rusiya Ermənistan-Azərbaycan sərhədində gərginliyi azaltmaq üçün vasitəçilik səylərini fəal şəkildə davam etdirir. Bakı və İrəvanla Xarici İşlər Nazirliyi, Müdafiə Nazirliyi, sərhəd xidmətləri xəttilə yaxından təmaslarımız qurulub. Son həftədə sərhəddə gərginliyi azalda bilmişik".

Rusiyalı rəsmi qeyd edib ki, sərhəddə delimitasiya və demarkasiya prosesi sürətlənməlidir: "Bu problemin davamlı və uzunmüddətli həlli üçün iki ölkə arasındakı sərhədin delimitasiyasını tez bir zamanda başlayıb, daha sonra demarkasiyasını həyata keçirməyin vacib olduğu qənaətindəyik. Bu işlərə dəstək verməyə hazır olduğumuzu bir daha bildiririk. Bu prosesə ən aktiv şəkildə kömək etməyə hazır olduğumuzu təsdiqləyirik". Onun sözlərinə görə, Rusiya Bakı ilə İrəvan arasında, İrəvan və Ankara arasında dialoqların normallaşmasına yönələn addımları qətiyyətlə dəstəkləyir: "Cənubi Qafqazdakı qarşılıqlı münasibətlər regiondakı bütün ölkələr nəzərə alınmaqla və balanslı şəkildə, mehriban qonşuluq prinsipləri əsasında inkişaf etməlidir". Proseslərin gedişi göstərir ki, Ermənistan sərhədlərin müəyyən edilməsi məsələsində Azərbaycanın dedikləri ilə razılaşmalı olacaq. Bunu Zəngəzur, xüsusən də Xoznavar kəndi ətrafında baş verənlər də təsdiq edir.

Qeyd edək ki, bu günlərdə Ermənistan baş nazirinin səlahiyyətlərini icra edən Nikol Paşinyan Zəngəzur vilayətində olarkən özünün seçki kampaniyası çərçivəsində sərhədlə bağlı maraqlı açıqlama vermişdi: "Bizim təsəvvürümüz belədir: sərhəd nöqtələri boyu Rusiya sərhəd qoşunlarının nümayəndələri yerləşdirilir, onlar beynəlxalq müşahidəçilərin nəzarəti altında Sotk qəsəbəsi ilə Xoznavar kəndi arasından keçən sərhəd xəttini dəqiqləşdirirlər. Buna qədər isə Azərbaycan və Ermənistan qoşunları güzgü prinsipi ilə öz daimi dislokasiya yerlərinə qayıtmalıdır". Belə bir vaxtda Ermənistan mətbuatı olduqca maraqlı məlumat yayıb. Məlumatda qeyd edilir ki, Azərbaycan-Ermənistan sərhədinə yaxın ərazidə yerləşən Xoznavar kəndinin sakinləri evlərini tərk edərək Cermux və yaxın rayonlara yerləşməyə başlayıb. O da qeyd edilir ki, Xoznavar sakinlərinin evlərini tərk edərək ətraf rayonlarda yerləşmələrinin səbəbi kəndin yaxın günlərdə Azərbaycana veriləcəyi ilə bağlı xəbərlərin yayılmasıdır. Erməni sakinlərə deyiblər ki, sərhədlərin müəyyən edilməsi prosesi yaxın vaxtlarda başlayacaq və xəritəyə əsasən kənd Azərbaycana verilməlidir. Bundan başqa, Xozanavar sakinləri Azərbaycan ordusu kəndin yaxınlığında mövqe qurduqdan sonra problemlə üzləşdiklərini deyiblər. Onlar bildiriblər ki, artıq heyvanlarını otarmaq üçün sahələri yoxdur. Həmçinin, su və digər problemlərdən də əziyyət çəkirlər. Bəzi məlumatlara görə, sözügedən kəndin əhalisinin artıq yarısı evlərini tərk edib. Onların çoxu Cermux şəhərində qərarlaşıb. Onlardan biri Varo Qriqoryan deyib ki, müharibəyə qədər Laçında yaşayıb: "Oradakı evimi müharibədə itirdim. Sonra Xoznavara daşındım. Artıq ordan da çıxmışam və Cermuxda kirayə qalıram. Artıq ikinci evimi də itirdim. Bizə dedilər ki, yaxın vaxtlarda Xoznavar Azərbaycana veriləcək. Ona görə də, kənddən çıxdıq və bura yerləşdik". Lakin burada qeyd edilməlidir ki, Azərbaycan Ermənistanda hansısa ərazini ələ keçirmir. Sadəcə, öz ərazisinə nəzarəti bərpa edir. Rusiyalı tarixçi, hərbi ekspert Oleq Kuznetsov da bu xüsusda bildirir ki, Ermənistanda hakimiyyətə kim gəlirsə-gəlsin, artıq üç fakt danılmaz olaraq erməni xalqı tərəfindən qəbul olunacaq: Qarabağ Azərbaycandır, Ermənistan məğlub ölkədir, dövlət sərhədi Azərbaycanın istədiyi yerdən keçəcək! O qeyd edir ki, hətta sərhədlər 1975-ci ilin xəritələri ilə deyil, 1921-ci ilin xəritələri ilə çəkilə bilər.

### Ermənilər üçün Qarabağ məsələsi artıq mövcud deyil...

Ermənistanda belə hesab edilir ki, yaranmış vəziyyətdə, sərhədlə yanaşı, Azərbaycan Qarabağda qalan ermənilərlə bağlı hadisələri də artıq istədiyi məcraya yönəldə bilib. Ermənistan baş nazirinin vəzifəsini icra edən Nikol Paşinyanın İctimai Televiziyanın efirində seçkilərlə bağlı keçirilən debatda səsləndirdiyi fikirlər də bunu təsdiq edir. O, rəqiblərinə xitabən bildirir ki, Ermənistanın Qarabağın hətta indi də "müstəqilliyi"ni tanıması ilə bağlı açıqlamalar təhlükəlidir və müharibə səbəbidir. Paşinyan rəqiblərinin Ermənistan hökumətinin 44 günlük müharibə zamanı Qarabağın müstəqilliyini tanımaması ilə bağlı ittihamlarına cavab verib: "Çox maraqlı vəziyyətdir. Bizi qınayırlar ki, mənim dediyim "artsax Ermənistandır" ifadəsi müharibəyə təhrik etdi. Amma indi həmin adamlar soruşur ki, niyə "arsax"ı tanımırıq. Onlara görə, o cümlə müharibəyə gətirib çıxarmışdısa, "arsax"ın tanınması müharibəyə səbəb olmayacaqdı? Bu gün də tanınma məsələsini təkrarlamağa davam edirlər. Hesab edirəm ki, bu mövqe müharibəyə gətirib çıxaracaq".

Paşinyanın dediklərini "Genaket" analitik mərkəzinin rəhbəri, erməni hərbi ekspert Tiqran Abramyan da təsdiq edir. O bildirir ki, hər hansı qüvvə müstəqilliyin tanınması haqda fikir səsləndirirsə, o, cəmiyyətə yalan danışır: "Bir müddət sonra Ermənistan ordusu Xankəndidən könüllü şəkildə çıxmaqdan imtina etsə, Azərbaycan Silahlı Qüvvələri yeni hərbi əməliyyata başlaya bilər. Böyük ehtimalla, "arsax" məsələsi artıq mövcud deyil, bu məsələ tam olaraq bağlıdır. Bu gün biz dövlətimizin və ölkəmizin sonunu görürük. Güman etmək olar ki, hər şey belə davam etsə, 10 ildən sonra bütün Ermənistan Azərbaycanın və Türkiyənin tərkibində olacaq". Erməni ekspert Levon Şirinyanın da baş verənlər fonunda açıqlamaları xüsusi maraq doğurur. O qeyd edir ki, Qarabağ məsələsi artıq mövcud deyil: "Ermənistan məsələsi gündəmə qoyulub. Burada da proseslər rəqiblərimizin xeyrinə inkişaf edir". Ermənistan Silahlı Qüvvələrinin keçmiş Baş Qərargah rəisi, general-polkovnik Movses Hakobyan da eyni mövqeni bölüşür: "Bu gün Ermənistanın dövlət sərhədində baş verənlər 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə imzalanmış sənədlə nəzərdə tutulub. Orada təsbiq edilmiş daha pis bəndlər var, bunların prosesi hələ başlamayıb. Mən buna hələ ötən il noyabrda toxunmuşam. Demişəm ki, Vardenis və Zəngəzurda bu cür problemimiz olacaq".

Jurnalistin "Mümkündürmü ki, bir gün də oyanaq və rəqibin artıq paytaxtın darvazalarının yanında olduğunu anlayaq" sualına Movses Hakobyan belə cavab verib: "İrəvana nə zaman çatacaqlarını deyə bilmərəm, lakin belə davam etsə və rəqibi çıxarmaq istiqamətində müvafiq tədbirlər görülməsə, vətənimiz hər gün hissə-hissə, parça-parça rəqibin əllərinə düşəcək". Digər ekspertlər də qeyd edir ki, Azərbaycan və Türkiyə Şuşadan Ermənistana, region dövlətlərinə, o cümlədən dünyaya çox açıq və aydın mesaj veriblər. Bu da ondan ibarətdir ki, regionun güclü, strateji tərəfdaş, qardaş dövlətləri kimi çıxış edən Azərbaycan və Türkiyənin birliyi bundan sonrakı dövrdə də davam edəcək. Bu bölgə ilə bağlı xam xəyallara dalan qüvvələr qarşılarında güclü Azərbaycanı və Türkiyəni görəcəklər. Bunu Ermənistanda indi daha yaxşı başa düşürlər.

### Ermənistan Azərbaycan qarşısında daha müti duruma düşəcək...

Bu gün maraq doğuran daha bir məsələ 20 iyun parlament seçkilərindən sonra Ermənistanda hadisələrin hansı istiqamətdə inkişaf edəcəyidir. Ermənistan siyasi qüvvələri artıq uzun müddətdir ki, ölkədə parlament seçkilərindən sonra nələrin baş verə biləcəyini müzakirə edir və belə nəticəyə gəlinib ki, genişmiqyaslı mitinqlərin başlanması və toqquşmaların olması qaçılmazdır.

"Joxovurd" qəzeti qeyd edilən fonda yazır: "Hakim komandanın bir hissəsi hesab edir ki, iş mitinqlərə qədər gedib çatmayacaq, çünki lazımı səsi toplamaq mümkün olacaq. Bu baxımdan Paşinyanın əsas məqsədinin Respublika meydanında müxalifətin mitinq keçirməsinin qarşısını almaq olduğu bildirilir. Məhz buna görə də baş nazirin səlahiyyətlərini icra edən Nikol Paşinyan 21-24 iyun tarixlərində meydanı "bron edib".

Paşinyan və komandası seçkilərdə qalib gələcəyinə inanır və ona görə də seçkidən sonra müxalifətin mitinqləri fonunda gərginliyin yaranması istisna edilmir. Artıq bununla bağlı hüquq-mühafizə orqanlarına da müvafiq göstərişlər verilib". O da qeyd edilir ki, 20 iyundan sonra İrəvanda qanlı toqquşmalar qaçılmazdır. Üstəlik, İkinci Qarabağ müharibəsindən sonra polisin də toplaya bilmədiyi kifayət qədər qanunsuz silahlar var. Baş verənlər Nikol Paşinyanı və ya seçkilərdə qalib gələn digər qüvvəni Türkiyə və Azərbaycanın ətəyindən yapışmağa, Zəngəzur dəhlizinin açılmasını sürətləndirməyə təhrik edəcək. Erməni mediası açıq etiraf edir ki, seçkilərdən sonra Ermənistan daha zəifləmiş dövlətə çevriləcək və bu da onun Azərbaycan qarşısında müti durumda olmasını qaçılmaz edəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Mediann İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**